# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

## (M. ÇƏMƏNLİ YARADICILIĞINDA)

**Dövlətçilik tarixi hər bir xalqın öz mövcudluğu uğrunda apardığı mübarizə yoludur. Bu mübarizədə də əsas silahlardan biri ideologiyadır. Ümummilli lider Heydər Əliyev də məhz Azərbaycançılıq ideologiyası vasitəsilə Azərbaycan xalqının (burda yaşayan və yaşamayan) həmrəyliyi, bütövlüyü, mənəvi birliyinə, dövlətçiliyimizin möhkəmlənməsinə çalışmış və buna da nail olmuşdur.**

### *"Azərbaycançılıq" termini*

Sovet rejimindən ayrılmaq istəyi ilə bərabər səslənməyə başlamışdır. Bu öz dilini, dinini, milli-etnik simasını, etnoqrafiyasını, sərhədini, maddi və mənəvi mədəniyyətini qoruyub saxlamaq üçün ərsəyə gəlmiş bir məfkurədir. Bu ideologiya öz təməlini Azərbaycan Xalq Cümhuriyyətinin "türkçülük, çağdaşlıq və islamçılıq" ideyasından götürmüşdür. Dövlətimizin ərazi bütövlüyü, milli-tarixi yaddaşa qayıdış, milli özünüdərk azərbaycançılıq ideologiyasının əsasını təşkil edir. Onun əsas vəzifələrindən biri milliyyətindən və dinindən asılı olmayaraq azərbaycan xalqında vətənə sevgi, vətəndaşlıq, milli mənəvi dəyərlərə hörmət hissini aşılamaqdır. Çünki hər bir vətəndaş milli vətənpərvərlik, milli insan ruhunda formalaşmalıdır. Ona görə də bu, xalqın, dövlətçiliyin, azərbaycançılığın qarşısında duran əsas məqsəddir. Burdan belə nəticəyə gəlmək olar ki, ideologiyasız yaşayan xalq öz dövlətini, öz dövlətçiliyini, xüsusən müstəqilliyini qoruya bilməz. Yəni vətənpərvər ruhu olmayan cəmiyyətin mübarizə gücü haqqında danışmağa dəyməz.

Deməli, dövlətimizin əsas ideoloji özəyi azərbaycançılıqdır. Azərbaycançılıq dedikdə dövlətçilik, milli-mənəvi dəyərlər, dil, din və s. məfhumlar başa düşülür. Bu ideologiyanın da əsas qayəsi milli özünüdərkdir.

**Milli adət-ənənə, milli düşüncə tərzi azərbaycançılıq ideologiyasının əsas dayaqlarından, qaynaqlarından biridir. Çünki adət və ənənə özlüyündə xalq müdrikliyinin, düşüncəsinin daşıyıcısıdır. Milli adət və ənənələr sanki keçmişlə bu günün, bu günlə gələcəyin arasında etnokulturoloji körpü rolunu oynayır. Azərbaycançılıq ideologiyası özündə həm də multikulturalizm və tolerantlıq prinsiplərini cəmləşdirmişdir.**

Milli adət və ənənələri qoruyub saxlamaq və yaradıcılıqda inkişaf etdirib möhkəmləndirmək Azərbaycançılıq məfkurəsinin əbədiyaşarlığını təmin etməyin əsas şərtlərindəndir.

XX əsrin 60-cı illərindən cücərən millilik ideyası artıq müstəqillik dövründə azərbaycançılıq ideologiyasına, yəni bütün xalqı yumruq kimi birləşdirən vacib milli siyasi sistemə çevrilir.

Azərbaycançılıq ideologiyasının (qollarından) ən vacib ünsürlərindən biri də dövlət dilidir. Dövlətçiliyimizə göz dikən, bizi hər zaman əsarətdə saxlamaq, yaddaşımızı silmək istəyən işğalçı istilaçılar tərəfindən dəfələrlə əlifbamız dəyişilmişdir. Bu səbəbdən də müəyyən dövrlərdə, yəni əlifbamızın dəyişildiyi zamanlarda ədəbiyyatda və tarixdə bir durğunluq, kəskin keçidlər hiss olunur. X.R.Ulutürk "Kimliyim" məqaləsində çox düzgün buyurur: "Xeyli sonralar anladım ki, əlifbanın tez-tez dəyişdirilməsi xalq üçün böyük fəlakətdir, milli-mədəni estafetin qırılması deməkdir. Orxon-Yenisey əlifbasından ərəb əlifbasına, ondan latın əlifbasına, ondan da rus qrafikası üzrə əlifbaya və daha sonra bunun əsasında ən yeni əlifbaya keçilməsi elmi və mədəni inkişafımıza ağır zərbələr endirmişdi". Həqiqətən, məhz dil hər bir millətin kimliyini sübut edən tarixi faktdır.

### *Tarixi və mədəni abidələrin*

üzərində yazılmış yazılar bunun əyani sübutudur. Ədəbiyyat bir xalqın keçdiyi inkişaf yolunu, həyat tərzini, düşüncəsinin göstəricisi olmaqla yanaşı, həm də dil faktorudur. Deməli, bütün siyasi, mədəni, mənəvi dəyişikliklərin dil vasitəsilə ədəbiyyatda əks olunması tarixi hadisədir. Yəni ədəbi proses baş verən dəyişikliklərdən, zamanından, dövrünün ictimai-siyasi hadisələrindən çox asılıdır. Çünki ədəbiyyat əksetdirmə prinsipi əsasında formalaşır. Və məhz zamanın təsiri və tələbi ilə ədəbiyyatda yeni janrlar, üslublar, yeni ədəbi axınlar, yanaşmalar, prototiplər yaranır. Buna görə də Sovet birliyinin dağılması ilə xalqımız, dövlətimiz siyasi demokratiya pərdəsini - sosializm ideologiyasını üstündən birdəfəlik atır, çoxəsrlik milli, tarixi, mənəvi özünüdərkini, qayıdışını realizə edir. Düzdür, uzun müddət müstəmləkə siyasətinin ağırlığı altında əzilən dövlətimiz bu yolda bir sıra çətinliklər çəkir. Lakin içimizdə bəslədiyimiz və nəhayət açıq-aşkar etiraf edə bildiyimiz azərbaycançılıq ideyası birləşdirici və hərəkətverici bir qüvvə kimi azərbaycanlıları (burada müxtəlif etnik qruplar da nəzərdə tutulur) öz ışığına toplaya bilir. Sovet siyasəti və ideologiyası ilə söndürülməyə çalışılan işıq - Azərbaycançılıq ideyası Müstəqil Azərbaycanın milli dövlət ideologiyasına çevrilir. Milli ideyanın qorunub yaşadılması, inkişaf edilməsində ədəbiyyatın rolu əvəzedilməzdir. Məhz ədəbiyyat, xüsusən də Ə.Cavad, C.Cabbarlı, A.İldırım, Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə, Məmməd Araz kimi istiqlal şairləri Azərbaycançılıq ideyasının carçıları olmuşlar. Bu ideyanı eyni zamanda Anar, Elçin, Yusif Səmədoğlu, Ramiz Rövşən, Aqil Abbas, Əlisa Nicat, Elçin Hüseynbəyli, Vaqif Bayatlı, Əjdər Ol və b. davam etdirmişlər.

### *Sovet dövrünün 60-cı illərindən*

**başlayan, müstəqillik dövründə daha da inkişaf edib möhkəmlənən azərbaycançılıq ideyasını təbliğ edən ədəbi simalardan biri də Mustafa Çəmənlidir. Sovet ideologiyası təsiri ilə böyüdüyünə baxmayaraq milli ruhunu itirməyən, qəlbində böyük və qüdrətli, bütöv Azərbaycan ideyasını yaşadan Mustafa Çəmənli əsərləri ilə hər zaman bu sevgini, ideyanı oxucuya ötürməyə çalışmışdır. Milli xarakteri, milli etnik şüuru, milli tarixi yaddaşımızı yüksək dəyərləndirdiyini əsərlərindən, düşüncələrindən duyulur.**

Milli heysiyyətə malik, xalq sənətinə, folklora təəssübkeşlik edən bu adam dövründən, zamanından, rejimindən asılı olmayaraq hər vəchlə milli etnik şüuru oxucusuna xatırlatmış, onları milli tarixi yaddaşa - soya, kökə qayıtmağa səsləmişdir. Milli şüur və dərketməyə qayıdışa çağırış onun yaradıcılığının əsas və ali məqsədinə çevrilmişdir.

Yazıçı yaradıcılığı boyu milli-mənəvi yaddaşın oyanmasına təkan verən tarixi mövzulara müraciət etmişdir. Məsələn, "Xallı gürzə"nin 80-ci illərdə yazılması heç də təsadüfi deyil. Sovet ölkəsində baş verən proseslər bir yazıçı, vətəndaş kimi onu da narahat edirmiş. 80-ci illərdə "demokratiya pərdəsi" yavaş-yavaş qalxdığı və insanların ətrafda baş verənləri daha dərindən analizetmə imkanını əldə etdiyi bir dövrdə belə milliyətçilik, azadlıq hissi duyulsa da, söz azadlığı haqda söz ola bilməzdi. Buna görə də Mustafa Çəmənli tarixi mövzuya üz tutmuş, öncədən hiss etdiyi Qarabağ probleminin dərin qatlarını göstərməyə çalışmış və öz etirazını bütöv dövlət, milli düşüncə, milli heysiyyət ideyaları şəklində ifadə etmişdir. Onun bu addımı həmin dövr üçün bir üsyan idi.



Vaqif Yusifli bu əsərin müsbət məziyyətləri haqqında yazır: ""Xallı gürzə"nin yazıldığı tarixdən on-on iki il keçəndən sonra yenə oxudum və romanın Azərbaycan tarixi nəsrində yerini, rolunu müəyyənləşdirməyə cəhd etdim. Bir anlığa görkəmli ədibimiz - tarixi romanlar ustası Yusif Vəzir Çəmənzəminlini xatırladım.

### *Onun "Qan içində" romanı,*

**sözsüz ki, Azərbaycan tarixi romanları içərisində seçilir. Bu əsər mövcud "Qarabağnamə"lərin durulmuş, sanki süzgəcdən - ələkdən keçirilmiş bədii ifadəsidir. Məncə, "Xallı gürzə" bu mənada ikinci bir tarixi romandır ki, Qarabağ xanlığının, onun banisinin və eyni zamanda həmin dövrdə Azərbaycan xanlıqlarının bir-biriylə münasibətlərinin bədii tarixini əks etdirir".**

Mustafa Çəmənli bu əsərlə Qarabağ xanlığının tarixini, mübarizəsini göstərir. "Qardaş" millətin namərdliklərini unutmamağa çağırır. Çünki anlayır ki, gün gələcək onlar ilan kimi yenə başlarını qaldırıb bizim milləti, dövlətimizi zəhərləməyə çalışacaqlar. Həqiqətən də belə olur. "Böyük qardaşı"nın gücünə arxayın olan ermənilər bizim tariximizə, dövlətçiliyimizə növbəti zərbələrini vururlar.

### *Müstəqilliyin dadını doyunca duymamış*

**Azərbaycan yenidən qana boyanır. Qarabağ müharibəsi! Ədəbiyyat bu xaosun içində bir müddət durğunluq dövrü yaşadığına baxmayaraq yenidən ideoloji mübarizəyə qalxır. Eləcə də Mustafa Çəmənli "Fred Asif", "Ruhların üsyanı", "Mübariz", "3 yaşlı əsir" povestləri ilə Qarabağ müharibəsinin gedişatını, xalqın qələbə istəyini, aldığı zərbələrə baxmadan itirmədiyi insanlığını, mərhəmətini əks etdirməklə azərbaycançılığı təcəssüm və təbliğ edir.**

O, 2012-ci ildə "Ölüm mələyi" tarixi romanı ilə dövlətçilik tariximizə bir daha səyahət edir. XVI əsrin mürəkkəb və ziddiyyətli əksini təcəssüm etdirməklə yanaşı, dövlətçiliyimizin, müstəqilliyimizin tarixi köklərini qabardıb ön plana gətirir. XVI və XVIII əsrlərin mürəkkəb və ziddiyyətli əksini təcəssüm etdirən "Xallı gürzə" və "Ölüm mələyi" tarixi romanları kompozisiya və üslub cəhətdən fərqlənsələr də hər ikisi Azərbaycan dövlətçiliyinə həsr edilib. Hər iki əsərdə dövlət yaradıcıları olan tarixi şəxsiyyətlərin və onlarla çiyin-çiyinə duran digər tarixi real obrazların da Təhmasib şah, İbrahim mirzə, Pərixan, Pənah xan, Çələbi xan.... və s.) xarakterləri açılır, onların dövlətçilik sahəsində xidmətləri və nöqsanları göstərilir. Bununla da yazıçı "tək əldən səs çıxmaz" deyib Azərbaycan dövlətinin varlığı və ideyasının təkbaşına yaradılmadığını göstərir. Bunun üçün vətəni sevən, onun uğrunda ölməyə belə hazır olan insanların yetişdirilməsinin vacibliyini diqqətə çatdırır.

Yazıçı öz səmimi, azərbaycan xalqına doğma təhkiyəsi ilə faktlara bədii inandırıcılıq, psixologizm qata bilir. Məhz dil və bədiiliyin ideal vəhdətinə görə hadisələr, qəhrəmanlar daha dolğun, bitkin və tamamlanmış olur.

**Düzdür, N. Cabbarova son dövrlərdə tarixi şəxsiyyətlərə müraciəti "ekzotik maraq" kimi qiymətləndirir, lakin bunun həm də cəmiyyətin liderə, ideal şəxsiyyətə mənəvi ehtiyacından irəli gəldiyini görürük.**

O, yalnız tarixi mövzularda deyil, həmçinin ailə-məişət, sosial-ictimai mövzularda yazdığı hekayə və povestlərdə belə milliliyimizin unudulması qorxusunu təsvir edir. Biz bu hekayə və povestlərdə kökündən, milli düşüncəsindən qopmuş insanların yarımçıq talelərə, məhv olmuş arzulara, unudulmuş adət-ənənələrə etirazla rastlaşırıq. Yazıçı mənfi cəhətdən inkişaf edən bu tipli metamarfozaları - "kişilik, insanlıq" kodeksinin qüvvədən düşdüyünü analitik təhlil vasitəsilə oxucunun diqqətinə çatdırmağa çalışır. O, bununla demək istəyir ki, dağıtmaqla heç nə yaratmaq olmaz. Yalnız var olanı mənfi xüsusiyyətlərindən təmizləyib inkişaf etdirmək lazımdır.

M.Çəmənli, ümumiyyətlə, xalqına, onun tarixinə, ədəbiyyatına, musiqisinə, kökünə bağlı olan bir şəxsiyyətdir. Buna görə də onun yaradıcılığı folklor motivləri ilə zəngindir. O, müxtəlif atalar sözləri və məsəllər, deyimlər, bayatılar, rəvayətlər, alqış, qarğış, adət-ənənələr, mərasimlər, inanc və lətifələrdən istifadə etməklə əsərlərinin bədii dilinə rənagarənglik qatmaqla yanaşı, həm də dilimizi, azərbaycançılığımızı tərənnüm edir. Şifahi xalq ədəbiyyatından, xüsusən də aşıq yaradıcılığından istifadə mifə söykənən el ruhuna, milli yaddaşa işarə edir.

### *Bir sözlə,*

Azərbaycançılıq bəşəri dəyərləri özündə əks etdirən ümummilli məfkurə kimi milli və bəşəri olan Azərbaycan ədəbiyyatının inkişafında əsas yer tutur. Çünki hər ikisi milli əxlaqın, düşüncənin, təfəkkürün, inkişafın göstəricisidir.

**Buna görə də Azərbaycançılıq ideologiyası hər zaman və hər yerdə Azərbaycan uğrunda daha möhkəmlənməli, daha da bərqərar olmalıdır.**

**Babayeva Aynurə Nizami qızı**
**Sumqayıt Dövlət Universiteti**

Ədalət.- 2020.- 16 yanvar. S. 5.